**Məmməd Səid Ordubadi**

# QANLI SƏNƏLƏR

1905-1906-cı illər

qanun nəşriyyatı

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun
Elmi Şurasının 25 may 2022-ci il tarixli 5 №-li iclasının qərarı ilə nəşr edilir.

Elmi redaktor və ön sözün müəllifi:
**Teymur Kərimli**
*akademik*

Tərtib, transfoneliterasiya, lüğət, izah və şərhlər:
**Əkrəm Bağırov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Məmməd Səid Ordubadi. QANLI SƏNƏLƏR**
Bakı: Qanun Nəşriyyatı, 2024, 280 səh.

Ölçü: 145x210 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 05.10.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Yığıcı: | Manafova Elmira |
| Texniki redaktor: | Xəyalə Əhmədova |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-661-5

© Qanun Nəşriyyatı, 2024
© Əkrəm Bağırov, 2024

Görkəmli naşir, şair, mühərrir və ictimai xadim Məmməd Səid Ordubadinin “Qanlı sənələr” əsəri 1905-1906-cı illərdə Qafqazda cərəyan etmiş hadisələr zamanı canlı şahidlərin verdikləri ifadələr, məktublar və dövri mətbuat materialları əsasında yazılıb. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı soyqırım aktının canlı səhnələrini və nəticələrini əks etdirən bu kitab illər ötsə də, öz tarixi əhəmiyyətini itirməyib. Əsər ilk dəfə tam şəkildə transfoneliterasiya edilərək, ətraflı şərh, izahlar və lüğət əlavə olunmaqla geniş oxucu kütləsinə təqdim olunur.

## HANSI İLİMİZ QANSIZ OLUB Kİ?..
### Məmməd Səid Ordubadinin "Qanlı sənələr" kitabının yeni nəşrinə ön söz

Kəràminə şükür Ulu Tanrının!

Yaratdığı quluna can verib, yaratdığı gözəl dünyadan doyunca feyz almaq, ona ayrılmış ömür payını hüzur və sevinc içində başa vurmaq üçün Yer üzünə göndərib. Ancaq verdiyi canın da əsasını qan adlı möcüzəli maye təşkil edir ki, onsuz insan həyatı əbədən mümkün olmazdı. Yəni qan yoxdursa, can da yoxdur. Elə buna görə zaman-zaman insan düşməni olan, iblisin törəməsi xəbis qüvvələr insanın canını almaq üçün onun qanına susayıblar və nə yazıq ki, yüz min illərdir bu təşnəliyi bir dürlü yatırmaq olmur...

Türkün ürək açıqlığından, qəlb genişliyindən sui-istifadə edən neçə-neçə qan hərisləri yüzillər boyu bizi də rahat buraxmayıblar. Ancaq bu son yüz-yüz əlli ildə düşdüyümüz müsibət, bizə yapışan dəhşətli vampir, qopmaq bilməyən zəli bir özgə cür qanımızı sorub, doydum-dolandım deməyib və bu gün də sormaqdadır...

Tarix boyu dünyada misli-bərabəri görünməmiş bu şər fenomeni haqda çox deyilib, çox yazılıb. Tanrı ilə heç bir bağlılığı olmayan, ancaq məlun iblisin diktəsi ilə durub-oturan, insana ziyan vurmaqdan, əzab verməkdən həzz alan bu şər fenomeninin törətdiyi vəhşiliklər bəlkə iblisin özünü də heyran qoyardı.

Hindistan yarımadasından ziyanlı bir həşərat kimi dünyaya yayılan, ən əsası isə, kvazidövlət kimi Azərbaycanın qonşuluq bəxti-

nə düşən bunları nəzərdə tutaraq dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi deyirdi ki: "Yox-yox! Sən türk deyilsən, qarətçi bir hindusan!"

Dahi Füzuli də beləlerini nəzərdə tutaraq: "Şəkli insan olur, əmma özü insan olmaz!" demişdi...

Azərbaycan tarixi romanının banisi, böyük ədibimiz Məmməd Səid Ordubadinin oxuculara təqdim olunan kitabı da məhz bu qanlı tarixin bir parçasını olduğu kimi millətə çatdırmaq, bununla da yalnız türk olduğu üçün Tanrının bəxş etdiyi ən böyük nemət olan həyatı əlindən alınmış minlərlə soydaşlarımızın məzlum ruhlarına azacıq təsəlli vermək istəmişdir.

Məşhur ispan rəssamı Fransisko Qoyyanın (1746-1828) dünyaca tanınan belə bir əsəri var: "Ağılın yuxusu əcinnələr doğurur". Doğrudan da, insan ağlı – hələ indiyə qədər də qaynağı və mahiyyəti açıqlanmamış bu fenomen yatarsa, şübhəsiz ki, onun boş qalmış yerini vəhşi instinktlər, heyvani ehtiraslar, əcinnələr tutacaq. Həm də bütün bunlar ağıl sahibi insanın əleyhinə işləyəcək; başqa sözlə, ağılı və vicdanı yatmış insanın özü vəhşiyə, əcinnəyə çevriləcək.

Bu hadisənin gerçək örnəyini biz abstrakt şəkildə deyil, real həyatda, bütöv bir etnik qrupun simasında, daha doğrusu, simasızlığında müşahidə edə bilərik.

Bunun adı – bəşəriyyətin üz qarası olan ermənilik-dir.

"Yaltaqlığı ana qarnında mənimsəyən" (XX əsr erməni şairi Yeğişe Çarens) bu insanabənzərlər çaqqal kimi özlərindən güclüyə yalmanıb arxalanmaqla qanını içməyə gücsüz axtarır və təbii ki, tapırlar. Ancaq gözləmədikləri halda burunlarına təpik dəyəndə it kimi zingildəyib fəryad qaldırır, "ay aman, qoymayın, bizi qırırlar!" - deyə hay-küy salırlar...

Bəli, bu gün güclü bir dövlətə çevrilmiş müstəqil Azərbaycan öz Ali Baş Komandanının – Prezidentin sərkərdəliyi altında erməni itlərini zingildətməyə, onillərdən bəri başımıza açılmış qeyri-in-

sani, tükürpərdici oyunlara cavab verməyə, pozulmuş tarixi ədaləti bərpa etməyə başlamışıq. İgid sərkərdəmizin yenilməz iradəsi, müzəffər ordumuzun qeyrəti, millətimizin vəhdəti, Tanrının lütfü sayəsində düşməni "it kimi qovub" (Ali Baş Komandan İlham Əliyev) öz yuvasına, öz forpostuna soxacağımız gün uzaqda deyil. Qələbələrimizin qaynağında isə, şübhəsiz ki, hər bir millət üçün ən böyük nemət olan dövlət müstəqilliyimiz və bu dövlətə dünyada hörmət qazandıran, söz sahibi edən müdrik rəhbərlərimizdir.

Ancaq nə yazıq ki, 100 il bundan öncə belə deyildi; çünki müstəqil dövlətçiliyimiz, dövlətimizin başında duran müdrik və qorxmaz rəhbərimiz yox idi və namərd düşmən də bu fürsətdən sui-istfadə edib üstümüzə qudurmuş, müqəddəs qanımızla müqəddəs torpağımızı suvarmışdı. Bu el bayatısı da bəlkə elə o qanlı-qadalı illərdə yanıb-qovrulan ürəklərdən boy vermişdi:

Vətəndir çəmən mənə,
Hardan çökdü çən mənə?
Məni arxasız görüb,
Qudurdu düşmən mənə...

Məmməd Səid Ordubadinin vətənpərvər qələminin məhsulu olan və öz vaxtında vətənpərvər türk oğlu, milli mesenat Murtuza Muxtarovun qeyrəti ilə işıq üzü görmüş bu kitab da məhz həmin faciəli dövrün – quduz itlə baş-başa, əli daşsız-dəyənəksiz qaldığımız müsibətli bir dövrün yanğılı-acılı təsvirini və təhlilini verir. Dahi sələfi Nizami Gəncəvi kimi mövzunun ağırlığından şikayətlənən ədib, bu çətin işə vicdanının diktəsi ilə girişdiyini və millətin çəkdiyi ağlagəlməz müsibətləri yenidən yaşaya-yaşaya mürəkkəb əvəzinə ürək qanı ilə əsəri bitirdiyini də qeyd etməyi unutmayaraq yazır:

"Şu tarixi-müsəvvəri vücuda gətirmək üzrə qələmi əlimə aldığım zaman kəndimdə bir ələm, daha bir müsibət xatirələri hiss edirəm. Əcəba!

Əlimdəki qələm hər zaman qanlı sənələrdə sərzədə zühur olan faciələri təsbit və təhrirə təsəmmüm və təqərrür edir. Vicdanım isə işbu vəzifəyi-ülviyyəni ifada bir sövqi-təbii göstərir. Hissi-naçizimə gəldikdə qanlı sənələrdə ucalmış fəryadi – “Va məzluma”-ların təsirati-maddi və mənəviyyəsindən naşi olaraq naqabil dəf və təhəmmül bir üxüvvət, bir füturətə təsadüf edib, kəndisini böyləcə davamdan məhrum buraxır.

Behər surət zəbti-tarixə ictisari-niyyət edib cahani-bəşəriyyətin hər nöqtəsinə qəmpaş olan bu əsəri-naçizimi meydani-vücuda qoyuram.

Daha açıq, daha doğrusu iki millət beynində vaqe olan faciələri yazmaqla əbnayi-vətənə məsaibi-mazidən bir yadigaranəyi-ibrət kimi bir qitə fəryadnaməyi-vətən vücuda gətirdim. Xüdavəndi-əhədiyyətin tövfiqiylə iki sənə müddətində tədvin və təhriri başında çalışdığım bu əsəri-qiymətdarın xitamına dəstrəs oldum. Minlərcə təşəkkür ki, hissi-naçizimin iqtizasınca olmayaraq şənimdən mafövq, qədrimdən ziyadə olan mübahata nail olaraq ucalara yüksəldim. Zira, millətimin ən əhəmiyyətli, ən lüzumlu bir xidmətini dəröhdə edib də ifasında qüsurlu qalmayıb, kəndimcə ali bir vəzifəyi qazandım. Filvaqe, bən bu dərəcəyi-ali və iftixarı iktisab etməyə müqtədir deyilidim. Daha qələm və iqtidarımda öylə əhəm bir vəzayifi ifa üçün bir qabiliyyət, bir yardarlıq da yox idi.

Bəni bu dərəcələrə isad etdirən hörmətli müxbirlərimin həmiyyəti-millətpərvəranəsi, bir də vicdanımdır. Əvət vicdanım!

Cümlə Qafqaz millətlərinə, xah erməni, xah müsəlman, məlum ola ki, işbu tarix hər gunə qərəzi-şəxsi və millidən ari olub, hər nöqtədə yüz vermiş faciə və vaqiələri bitərəfanə yazdırıb qarelərinə kamali-ehtiram ilə təqdim edəcəkdir.”

Bu geniş sitatdakı “VİCDAN” sözünün altından qırmızı xət çəkməklə, deyərdim ki, bu gün də kitabın aktuallığını təmin edən başlıca cəhətlərdən biri məhz onun vicdanla, ayıq olan və heç vaxt

haqqı nahaqqa verməyən ədalətli TÜRK VİCDANI ilə yazılmasıdır. Belə deyərdim və yanılmazdım.

İkincisi, ədibin dili ilə desək, kitabın "qərəzi-şəxsi və millidən ari olmasıdır" ki, bu gün ikili standartlar içində kor kimi hara yönələcəyini bilməyən dünyanın yolunu məhz bu insani prinsiplə işıqlandıra bilər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu yaxınlarda ABŞ-dakı "Fox News" televiziyasına verdiyi müsahibədə bir çox dünya liderlərinə örnək olacaq uzaqgörən bir fikir səsləndirdi. Dedi ki, vaxtilə ABŞ və Almaniya bir-birlərini öldürürdülər, Rusiya və Almaniya bir-birlərini öldürürdülər, on milyonlarla insan həlak olmuşdu. Bu gün isə düşmənçilik yaddan çıxıb; çünki insan keçmişlə yox, bu günlə və gələcəklə yaşamalıdır. Günahsız-günahlı, fərqi yoxdur – ölənlərin ruhu ilə alver etməməlidir!

Eynilə namərd qonşularımız da öz şeytani xislətlərindən əl çəksələr, ölülərin ruhunu bəhanə gətirib torpaq iddialarından vaz keçsələr, nədən bir yerdə yaşaya bilməyək? Necə ki, zaman-zaman yaşamışıq...

Ancaq xalqımızın bir müdrik sözü də var ki: "İtnən dostluq elə, dəyənəyi əlindən yerə qoyma!" Bəli, indi biz güclüyük, dəyənək də əlimizdədir və üstümüzə qısqırdan olmasa, it özü də quyruq bulamaqdan başqa bir iş görməz.

Olsun! Yenə gərəkdir ki, yaddaşımızı itirməyək – demirəm ki, xəstə təxəyyüllü, psixikası pozulmuşlar kimi nalə-fəryad eləyək, mərhumlarımızın ruhunu rahat yatmağa qoymayaq, keçmişlə yaşayaq – yox! Əsla! TÜRKün ruhu bu günə, gələcəyə köklənib! Qurub-yaratmağa, yaşayıb-yaşamağa, dünyanı gözəlləşdirməyə, insanı kamilləşdirməyə köklənib. Qoy nasist və revanşist ruhlu, psixikası ölüm və qanla yoğrulmuş etnoslar bizdən insanlıq dərsi alsınlar, adam olmağa çalışsınlar. Doğrudur, bu, uzun bir sürən,

gərgin bir tərbiyə tələb edəcək; axı meymun da birdən-birə insana çevrilməyib...

İndilik isə bu cür kitablara təkcə bizim deyil, bütün insanlığın ehtiyacı var – ibrət almaq üçün, adam olmaq üçün, insan olduğunu yaddan çıxarmamaq, heç olmasa arabir xatırlamaq, arabir də öz pis əməlindən utanmaq, öz həmcinsləri qarşısında azacıq da olsa, həya duyğusu keçirmək üçün... Ancaq nə yazıq ki, insanın da yaddaşı çox qısadır və zaman-zaman yadından çıxardır ki, artıq on min illərdir, cəngəllikdən çıxıb, dünyanı bəzəyən yekə-yekə, gözəl-gözəl şəhərlər salıb, hətta bunun xətrinə "mədəniyyət" deyə bir söz də uydurub (ərəbcə "şəhər" mənasını verən "mədinə" sözündən)!

Necə ola bilər ki, XX-XXI yüzillərin mədəni insanı (hər halda, özünə belə ad qoyubsa!) on min il bundan əvvəlki cəngəllik qanunları ilə yaşasın və hərəkət etsin?! Məgər buna anaxronizm demirlərmi?

Necə ola bilər ki, günün günorta çağı qoluzorluluğuna salıb, səni qısqırdana arxalanıb, qəzəblə qonşuna hürəsən və bununla da yetinməyib, hücum edərək dişləyib al qanına qəltan edəsən və minillər boyu yaşadığı elindən-obasından didərgin salasan və ən pisi də bununla qürrələnib tula kimi başını dik tutasan... o zamana qədər ki, burnuna təpik, ya dəyənək dəyməsin?

Dəyəndən sonra da zingildəyə-zingildəyə fəryad edəsən: "Ay aman! Qoymayın, məni genosid etdilər!"

Bəli, bunun bircə adı var: HƏYASIZLIQ!

Arı yeyib namusu atanlar üçün bu cür davranış, şivən salıb dünyanı başına yığmaq su içimi kimi bir şeydir... Çünki bunu dəfələrlə sınaqdan keçiriblər və həmin sınaqlardan dişlərində şirə qalıb. Ancaq dəyənəyin də müqəddəs vəzifələrindən biri həmin "şirəli dişləri" sındırmaqdır.

Çünki həmin şirə adi şirə deyil, insan qanının şirinliyinin şirəsidir və bir dəfə dişi qana batan it quduzlaşır, bunu yenə təkrar et-

mək istəyir, bundan heyvani bir həzz alır, insan qanından sərxoş olur...

Məmməd Səidin bu məşhur kitabı da məhz həmin sərxoşluğu aradan qaldırmaq, insanları ayıltmaq üçün yazılıb.

M.S.Ordubadinin bu əsəri tanınmış mənbəşünas, fars dili və Osmanlı türkcəsini mükəmməl bilən, arxiv rəflərində qorunan neçə-neçə tarixi-ədəbi əlyazmaların oxunub, tərcümə edilib çapa təqdim edilməsi işində göz nurunu əsirgəməyən filologiya üzrə Fəlsəfə doktoru, dosent Əkrəm Bağırov tərəfindən nəşrə hazırlanmışdır. Əvvəlki nəşrlərdən fərqli olaraq bu tarixi mənbənin mətninə sadələşdirmə nöqteyi-nəzərdən heç bir müdaxilə olunmamışdır. Olduğu kimi təqdim edilən bu əsərə tərtibçi tərəfindən geniş lüğət, ətraflı şərhlər və adlar göstəricisi əlavə edilmişdir. Bu da onun oxucu və tədqiqatçılar tərəfindən heç şübhəsiz daha yaxşı qavranılmasına kömək edəcək.

"Qanlı sənələr"in 1991-ci ildən başlayaraq çap edilməsi və təbliği istiqamətində görülən işlər gənclərimizin məkrli düşmənlərimizi tanımaqda az rol oynamamış və bundan sonra da oynamaqda davam edəcək.

***Akademik Teymur KƏRİMLİ***

## M.S.ORDUBADİ VƏ 1905-1906-CI İLLƏRİN QANLI HADİSƏLƏRİ

(TƏRTİBÇİDƏN)

***Bizim eranın IV əsrində – 387-ci ildə Cənubi Qafqazdan uzaqlarda öz "dövlətçiliyini" itirmiş erməni xalqı Osmanlı və İran dövlətləri tərkibində nisbətən kompakt şəraitdə yaşayaraq uzun əsrlər boyu müstəqil bir ölkə yaratmaq kimi nəcib arzuda olsalar da, bu yolda heç bir çirkin əməldən çəkinməmiş, addım-addım öz məqsədlərinə doğru irəliləmişlər.Belə ki, bu arzularının həmin ölkələr çərçivəsində həyata keçməsinin qeyri-mümkünlüyünü görüb erməni yazıçısı Artsruni kimi ideoloqlarının göstərişi ilə qatı millətçilik amallarının reallaşması üçün münbit şəraitə malik olan Cənubi Qafqaza köçməyi qərara almışlar.Onların bu istəyi Rusiya imperiyasının cənub sərhədlərində öz dindaşlarından ibarət bir bufer zonası yaratmaq siyasəti ilə üst-üstə düşdüyündən çar hökuməti bu işdə onların fəal yardımçısı olmuşdur.***

Cənubi Qafqazda yaşayan xalqların, birinci növbədə isə müsəlman-azərbaycanlıların da qara günləri elə bu vaxtdan–yəni XIX əsr Rus-Osmanlı və Rus-İran müharibələrindən sonra–minlərlə erməni ailələrinin bu torpaqlara köçürülərək yerli xalqların–azərbaycanlıların sıxışdırılması hesabına yerləşdirilməsindən sonra başlandı.

"Hələ 1833-cü ildə general Paşkeviçə təqdim olunmuş və A.A.Bakıxanov tərəfindən hazırlandığı güman edilən sənəddə Zaqafqaziya diyarının idarə edilməsi sistemi haqqında məlumatda Qarabağdan çıxmış erməni general V.Mədətovun və onun qohu-

mu Mirzəcan Mədətovun torpaqlarımızda törətdiyi cinayətlərdən qəzəblə söz açılırdı. Məlumatda xüsusilə nəzərə çatdırılırdı ki, dövlət qulluğunda olan bu şəxslər Rusiyaya guya sədaqətli olduqlarını göstərməklə hökumətin iltifatını qazanmağa, fitnələri nəticəsində cəzalandırılmış adamların və xalqların mülk-malını və hüquqlarını mənimsəməyə, həmişəlik bu diyarın–Cənubi Qafqazın hökmranı olmağa can atırdılar" (Tofiq Rüstəmov, "Qanlı illərin salnaməsi", "Xalq qəzeti", 6 fevral 1992-ci il).

Cənubi Qafqaz torpaqlarını yerli müsəlman xalqlarından təmizləyərək yerində "Böyük Ermənistan" yaratmaq xülyalarını reallaşdırmaq yolunda erməni millətçilərinin attıqları ilk ən böyük addım 1905-ci ildə baş verdi. İki il ərzində tarixi Azərbaycan torpaqlarını bürüyən od-alov minlərlə azərbaycanlı ailəsinin faciəsinə səbəb oldu. Bu qanlı-qadalı illərdə Azərbaycanın elə bir nöqtəsi olmamışdı ki, erməni qəsbkarlarının fitnə-fəsadları, hiyləgər siyasətləri nəticəsində orada qanlar tökülməmiş, ocaqlar sönməmiş olsun.

Həmin dövrdəki hadisələrlə bağlı son illərdə müxtəlif sənəd və materiallar, yazılı mənbələr üzə çıxarılıb arxivlər açılsa da (məs.: Армянский вопрос на Кафказе. Том 2: 1905-1906/Сост.и.комм. Гейдаров Т.К., Багиев Т.П., Шукюров К.К. СПб., 2011; Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993 və s.), qüdrətli Azərbaycan publisisti və yazıçısı M.S.Ordubadinin (1872-1950) 1908-ci ildə protokol dəqiqliyi ilə qələmə aldığı və yalnız 1911-ci ildə nəşr edə bildiyi "Qanlı sənələr" adlı əsəri xüsusi çəkiyə malikdir. Həmin qanlı illərin salnaməsi olan bu əsərdə biz o dövrün real mənzərəsini görür, yazıçının onlara verdiyi düzgün qiymətin və gəldiyi doğru nəticələrin şahidi oluruq. Əsər yazıçının o dövrdə çap olunan "İrşad" və "Tazə həyat" qəzetləri vasitəsilə xalqa etdiyi müraciətlərdən sonra aldığı 245 məktub və erməni vəhşiliklərinin ideoloqlarından olan Daşnaksütun partiyasının mənfur əməlləri haqqında dörd yüzdən artıq yazılı məlumat